*XX yüzillik bəşəriyyət üçün həm də unudulmaz acı dərslərlə yadda qalmışdır. Bu dövrün ən faciəvi hadisələrindən biri faşizm - nifrət, amansızlıq və milyonlarla insanın məhv edilməsi ideologiyası olmuşdur.*

*Sözügedən mövzu Azərbaycan üçün xüsusilə aktualdır, çünki xalqımız da faşist ideologiyasının müasir interpretasiyasının acılarını yaşamışdır. Uzun illər ərzində erməni işğalı Azərbaycan torpaqlarında erməni faşizminin ən dəhşətli təzahürləri ilə müşayiət olunmuşdur.*

# SOYQIRIMI - FACİƏ, İBRƏT VƏ XƏBƏRDARLIQ

*Prezident İlham Əliyev bu il yanvar ayının 7-də yerli televiziya kanallarına müsahibəsində demişdir:* ***"Müstəqil Ermənistan dövləti, əslində, faşist dövlətdir. Çünki əgər bu ölkəyə 30 ilə yaxın faşist ideologiyasının daşıyıcıları rəhbərlik ediblərsə, bu ölkəni onlar elə özləri kimi də formalaşdırıblar... Belə bir faşist dövlətlə biz qonşuyuq və faşizm təhlükəsi sovuşmur. Ona görə faşizm məhv edilməlidir. Bunu ya Ermənistan rəhbərliyi məhv edəcək, ya da biz məhv edəcəyik. Bizim başqa çarəmiz yoxdur. Yenə də 30 illik işğal, xalqımızın əzabları, Xocalı soyqırımı, dağıdılmış, viran qoyulmuş Qarabağ - bütün bunlar bizim gözümüzün qabağındadır və kim zəmanət verə bilər ki, bu, təkrarlanmayacaq, heç kim!".***

*Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımız işğaldan azad edildi, düşmənə ağır, sarsıdıcı zərbə endirildi. Təəssüf ki, erməni millətçiləri tərəfindən faşist ideologiyasının dirçəldilməsinə yönələn cəhdlər davam edir. 2024-cü ilin yanvarında Yerevanın mərkəzində neofaşistlərin yürüşü faşizmin istənilən formada təhlükə olaraq qalmasının acı xatırlatmasıdır. Bu, beynəlxalq ictimaiyyətdən belə ideologiyaların yayılmasının qarşısını almaq üçün qəti tədbirlər görməyi tələb edir.*

*Xocalı soyqırımı, kütləvi dağıntılar, etnik təmizləmələr - bütün bunlar Belarusun Xatın kəndində və qardaş ölkənin bütün ərazisində baş verənlərlə oxşar ideologiyanın təzahürləridir.*

*Xocalı və Xatın soyqırımları - keçmişdən gələn bir səda bizə xəbərdarlıq edir: faşizmə göz yummaq olmaz. İşğalın dəhşətlərini yaşamış Azərbaycan həmişə faşizm və onun təzahürləri ilə mübarizənin önündə olmuş və olacaqdır. Xocalı və Xatın faciələrinin bir daha təkrarlanmaması üçün tarixi yaddaşımız bizim əsas açarımızdır.*

*Belarus Milli Elmlər Akademiyası tərəfindən İkinci Dünya müharibəsi illərində Belarus xalqının soyqırımı haqqında hazırlanmış material təkcə nasistlərin qeyri-insani cinayətlərini xatırlatmır, həm də gələcək nəsilləri bu kimi faciələrin təkrarlanmamasının vacibliyi barədə xəbərdar edir.*

*Mövzunun aktuallığını nəzərə alaraq Belarus Milli Elmlər Akademiyasının materialı əsasında hazırlanan məqaləni oxuculara təqdim edirik.*

*Bu məqalədə oxucular ilk dəfə yayımlanan məlumatlarla tanış olacaqlar.*

Şərqi Avropa ölkələrini müstəmləkəyə çevirmək, əhalisini məhv etmək və əsarət altına almaq məqsədilə faşist Almaniyası Hitler siyasətinə tam uyğun bir şəkildə "Ost" Baş planını hazırlamışdır. Bu planın əsasında dövlət siyasəti səviyyəsinə yüksəlmiş, irqi nifrətə əsaslanan "Yeni ərazi siyasəti" nəzəriyyəsi dayanırdı. "Ost" planının əsas təşəbbüskarı olmuş Himmler 16 sentyabr 1942-ci il özünün "Hegevald" sahə qərargahında SS və polisin yüksəkrütbəli komandirləri ilə keçirdiyi müşavirədə işğal olunmuş Belarus torpaqlarının taleyini belə müəyyən etmişdir: "Biz (Almaniya) Belorusiyanı almanlaşdırmalı və məskunlaşdırmalıyıq".

Müharibənin gedişatında nasist strukturları "Ost" planının müddəalarına uyğun olaraq Belarus xalqının məhv edilməsinə dair qısamüddətli proqramlar hazırlamışlar. Latviya SSR-in Mərkəzi Dövlət Tarix Arxivində (Fond 69, siyahı 1a, iş 3, s. 167) alman müstəmləkələşdirməyə dair qənimət sənədlər arasında Baltikyanı və Belorusiyanı əhatə edən xəritə aşkar edilmişdir. 17 noyabr 1942-ci il tarixli bu məxfi sənədə "Reyxskomissariat Ostland. II Bölmə. Ərazi" möhürü vurulmuşdur. Xəritə-sxemə və plana əlavə edilən dördillik variantlardan birinə əsasən Belorusiyanın qərb sərhədindən Qrodno-Slonim xəttinə qədər, Brest vilayətinin cənub hissəsi, Pinsk, Mozır rayonları, Polesyenin qalan hissəsi Prujanı, Qantseviç, Pariçi və Reçitsa xətti boyunca yerli əhali tamamilə təmizlənməli, oraya yalnız alman müstəmləkəçiləri yerləşdirilməli idi. Xəritədə müstəmləkəçilərin məskunlaşdırılması üçün nəzərdə tutulan ərazi, planlaşdırılmış dəstək məntəqələri və yeni nəqliyyat yolları göstərilmişdir.




"SS reyxsfüreri Himmlerin şərq ərazilərinin yerli əhalisi ilə davranışla bağlı bəzi mülahizələri" adlı sənədin icrasını təmin etmək məqsədilə, hətta SSRİ-yə hücumdan əvvəl belə, bəşəriyyətə qarşı qeyri-adi qəddarlığı və amansızlığı ilə seçilən çoxsaylı əmr, sərəncam və təlimatlar verilmişdir. Faktiki olaraq, bu və digər sənədlər yerli əhaliyə qarşı vəhşilikləri Hitler Almaniyasının dövlət siyasəti səviyyəsinə qaldırır, alman hərbi qulluqçularını törətdikləri cinayətlərə görə məsuliyyətdən azad edirdi.

Regional mülki hakimiyyət sahələri reyxskomissariatlar idi. Onların yaradılması planı hələ 1941-ci ilin may ayında Rozenberq tərəfindən Almaniyanın Xarici İşlər Nazirliyi ilə əməkdaşlıq çərçivəsində hazırlanmışdı. Hitlerin 17 iyul 1941-ci il tarixli "İşğal olunmuş şərq ərazilərinin polis mühafizəsi haqqında" fərmanında müəyyən edilmişdi ki, işğal olunmuş ərazilərdə bütün polis hakimiyyəti SS reyxsfüreri Himmlerin əlində cəmləşir. Bu fərmana əsasən Himmler yalnız SS və polisin fəaliyyətini istiqamətləndirmirdi, həm də müstəmləkələşdirmə siyasətinin və əhalinin kütləvi məhv edilməsi prosesinin həyata keçirilməsində məhdudiyyətsiz səlahiyyətlər əldə edirdi ki, bu da "Ost" planının əsas tərkib hissəsi idi.

Alman ordularının şərqə sürətlə irəliləməsi, çoxsaylı hərbi əsirlərin olması və əmək qabiliyyətli kişi əhalisinin yoxlanılması zərurəti ilə əlaqədar nasistlər hərbi əsirləri bir yerə toplamağa və "düşmən elementləri" təcrid etmək üçün xüsusi düşərgə sistemi yaratmağa başladılar. Belarus ərazisində 260-dan çox konsentrasiya düşərgəsi yaradılmış və yüz minlərlə insan onların əsirinə çevrilmişdi. Bu düşərgələr soyqırımının əsas vasitəsi idi. 16 iyul 1941-ci ildə Hitler qərargahında keçirilən iclasda bütün sovet hərbi əsirlərinin ön cəbhə əsgərləri kimi nəzərə alınmamasını və onların amansız şəkildə məhv edilməsini əmr etmişdi. Belə düşərgələrdən biri 1941-ci il iyul ayının əvvəlində 4-cü ordu komandanı H.Klugenin göstərişi ilə Minsk yaxınlığındakı Drozdı ərazisində yaradılmışdı. Təxminən 140 min hərbi qulluqçu və həmçinin Minsk şəhərinin mülki kişi əhalisi nasistlər tərəfindən təkrar qeydiyyat bəhanəsi ilə tikanlı məftillərin arxasına salınmışdı. Hitler məmuru Dorş, Reyx naziri Rozenbergə məlumat verirdi ki, bu düşərgədə əsirlər dar məkanda saxlanılır, hərəkət etməkdə çətinlik çəkirdilər, düşərgə mühafizəçiləri isə odlu silahdan aramsız və amansız şəkildə istifadə edirdi.

25 iyul 1941-ci ildə Qrodno rayonunun Kolbasino kəndində sovet mülki və hərbi əsirlərin kütləvi məhv edilməsi üçün nəzərdə tutulmuş 353 nömrəli ştalaq düşərgəsinin tikintisinə başlanıldı. 50 hektarlıq ərazi tikanlı məftillərlə əhatə edilmiş, ətrafına pulemyot gülləri qurulmuşdu. Əsirlər 96 torpaq sığınacağında saxlanılır və onlara yemək qismində tullantılar verilirdi. Düşərgədə daimi olaraq təxminən 36 min insan vardı. Hər gün yüzlərlə əsir işgəncə və aclıqdan ölürdü. Düşərgənin mövcudluğu dövründə burada təxminən 18 min insan məhv edilmişdi. Kütləvi terror SS qoşunları (Mühafizə Dəstələri), SA qoşunları (Hücum Dəstələri), təhlükəsizlik polisi və SD (Təhlükəsizlik Xidməti), GPF (Gizli Sahə Polisi), mühafizə polisi, asayişin təmin edilməsi polisi, cinayət polisi, "Abver"in əks-kəşfiyyat orqanları, jandarmiya, xüsusi polis bölmələri, silahlı Wehrmacht qüvvələri və mühafizə diviziyaları tərəfindən həyata keçirildi. Ümumilikdə, 1941-1942-ci illərdə Belorusiyada nasistlər tərəfindən formalaşdırılmış alman-faşist işğal aparatı təxminən 160 min nəfərlik hərbi-polis qüvvəsinə əsaslanırdı. Bunlara partizanlarla mübarizə üçün bəzən cəbhədən cəlb edilən bölmələr daxil deyildi.

1941-ci il iyunun 27-də Hitlerin göstərişinə əsasən işğalçı hakimiyyətlərə məhkəmə fəaliyyəti həyata keçirmək qadağan edilmiş və əhalini hər cür vasitələrlə qorxu içində saxlamaq tapşırılmışdı. SS, SA, SD, GPF, Gestapo, cinayət və mühafizə polislərindən ibarət xüsusi əməliyyat qrupları (einsatzgruppen) yaradılmışdı. Bu qrupların qarşısında əhalinin sayını kütləvi məhvetmə yolu ilə azaltmaq qoyulmuşdu. Belorusiyanın işğal olunmuş ərazisində xüsusi "B" əməliyyat qrupu vəhşiliklər törətmişdir. Bu qrup ümumilikdə, 1942-ci il dekabrın 15-dək 134 298 nəfəri məhv etmişdir. 1942-ci ilin sonunda bu xüsusi əməliyyat qrupları formal olaraq ləğv olunmuş və arxa cəbhə qoşunlarının tərkibinə daxil edilmişdir.

Nasistlər Belorusiyada soyqırımı siyasətini işğalın ilk günlərindən başlayaraq qanlı terrorla və yəhudi əhalisinə qarşı kütləvi zorakılıqlarla həyata keçirmişlər. Yəhudilərin kütləvi məhv edilməsi məqsədilə nasistlər gettolar - yaşayış məntəqələrində xüsusi ayrılmış rayonlar yaradırdılar. 1941-ci il iyulun 19-da sahə komendantının əmri ilə Minskdə getto yaradılmışdır. Əmr dərc edildikdən sonra beş gün ərzində şəhərin bütün yəhudi əhalisi müvafiq olaraq ayrılmış rayona köçməli idi. Nasistlər kiçik bir ərazidə 100 min nəfəri toplamışdılar. Ümumilikdə, işğal olunmuş ərazidə nasistlər təxminən 70 getto yaratmışdılar. Belorusiyanın işğal olunmuş ərazisindəki ən böyük getto Minskdə yerləşirdi. Bundan əlavə, Brest, Qomel, Qrodno, Moqilyov, Borisov, Polotsk, Jlobin və digər şəhərlərdə də gettolar mövcud idi.

İşğal illərində nasistlər Belorusiyada kütləvi və amansız insan qətliamları törətmiş, maddi, mədəni və elmi dəyərləri vəhşicəsinə məhv etmişdilər. Alman işğalçılarının Şərqdə, o cümlədən Belorusiya ərazisində fəaliyyətləri əvvəlcədən düşünülmüş və planlaşdırılmışdır. Bu məqsədlər "Ost" Baş planı, 13 may 1941-ci il tarixində təsdiq edilmiş 21 saylı Direktivin xüsusi bölgələrə dair təlimatı ("Barbarossa" planı), eləcə də 13 may 1941-ci il tarixli "Barbarossa ərazisində hərbi yurisdiksiya və qoşunların xüsusi səlahiyyətləri haqqında" sərəncam, 1 iyun 1941-ci il tarixli "Almanların Şərqdə davranış qaydaları və ruslarla münasibətlərə dair on iki əsas qayda" kimi sənədlərlə təsbit olunmuşdur. Bu kimi digər analoji sənədlər, əslində, alman hərbi qulluqçularını törətdikləri cinayətlərə görə məsuliyyətdən azad edir və yerli əhaliyə qarşı törədilən vəhşilikləri Hitler Almaniyasının dövlət siyasəti səviyyəsinə qaldırırdı.

Belorusiya SSR-in işğal olunmuş ərazisində faşistlər "yeni qayda" adlanan, qanunsuzluq, zorakılıq, talan və qanlı terror üzərində qurulmuş qəddar müstəmləkəçi rejim tətbiq etmişdilər. Bu işğal rejiminin məqsədləri Belarus xalqının tamamilə əsarət altına alınması, sərvətlərinin talan olunması və əhalinin amansızcasına məhv edilməsi idi. Bu rejim Hitlerin yaratdığı administrasiya, xüsusi xidmət orqanları, eləcə də mühafizə və müntəzəm qoşunlar vasitəsilə həyata keçirilirdi.

**(davamı növbəti saylarımızda)**

**Hazırladı:**
**Emin QASIMOV,**
**"Respublika".**

Respublika .- 2025.- 26 fevral (№ 43).- S.6.